*10 dekabr—İnsan Hüquqları Günüdür*

# Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbulundan 65 il ötür

### *İnsan hüquq və azadlıqlarının müdafiəsi dövlətin ali məqsədidir*

Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 1948-ci il 10 dekabr tarixli «Ümumdünya İnsan Hüquqları Bəyannaməsi» adlı sənədi insan hüquqlarının qorunmasında mühüm beynəlxalq sənəddir. Bəyannamədə insan hüquq və azadlıqlarının ümumbəşəri səciyyə daşıdığı heç bir dövlətin daxili işi olmadığı vurğulanmış, həmçinin yaşamaq, azadlıq, bərabərlik, mülkiyyət və təhlükəsizlik haqqı sivil cəmiyyətin ali məqsədləri kimi önə çəkilmişdir. Eyni zamanda «İnsan Hüquqları Haqqında Ümumi Bəyannamə» ikinci dünya müharibəsinin törətdiyi dəhşətli cinayətlərə cavab kimi qəbul edilmişdir.

Həmin bəyannamənin prinsiplərini əsas tutan müstəqil Azərbayca Respublikasının Konstitusiyasının da əsasında «İnsan hər şeyin meyarıdır» ideyası durur. Azərbaycan Respublikası son 20 ildə beynəlxalq birliyin tam hüquqlu üzvü kimi əsrlərin sınağından çıxmış ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul edərək demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf yolu seçmişdir.

Müstəqil Azərbaycanda 1995-ci il noyabrın 12-də Konstitusiyanın qəbulundan sonra ölkəmizdə hüquqların keyfiyyətcə yeni mərhələsi başlanmış, dövrün tələblərinə cavab verən bir sıra yeni qanunvericilik aktları hazırlanaraq qəbul edilmişdir. 1996-1997-ci illərdə Azərbaycan insan hüquq və azadlıqlarının, demokratik təsisatların təminatı ilə bağlı mühüm beynəlxalq konvensiyalara, sazişlərə qoşulmuşdur. Ulu öndərin 1993-cü ildən tətbiqinə moratorium qoyduğu ölüm hökmü 1998-ci il fevralın 10-da tamamilə ləvğ edilmişdir. Yüksək humanizmin və insanpərvərliyin bariz ifadəsinə çevrilən bu addım Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltmiş, 2001-ci ilin 25 yanvarında müstəqil respublikamız Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilata tam hüquqlu üzv qəbul edilmişdir.

1998-ci ilin 22 fevralında ümummilli lider Heydər Əliyev «Azərbaycan Respublikasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» fərman imzalamışdır. Sözügedən fərmanın müəyyənləşdirdiyi mühüm məqsəd və vəzifələrə, ümumilikdə Azərbaycanın yeni inkişaf mərhələsinə adekvat olaraq insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq məqsədilə Azərbaycan Respublikasının Prezidenti 18 iyun 1998-ci il tarixdə xüsusi sərəncam imzalamışdır. Strateji əhəmiyyətli bu sərəncamla «Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsinə dair Dövlət Proqramı» təsdiq olunmuşdur.

Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu islahatları bütün sahələrdə inamla davam etdirən Prezident cənab İlham Əliyev qısa müddətdə insan hüquq və azadlıqlarının təminatı istiqamətində də kompleks tədbirlər həyata keçirmişdir. Prezidentin 28 dekabr 2006-cı il tarixli «Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında» sərəncamı isə Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində mühüm əhəmiyyət kəsb edir.

Ümumiyyətlə, Azərbaycanda insan hüquqlarının qorunması dövlətin qarşısında duran əsas məsələlərdəndir-.Ölkəmizdə aparılan çoxsahəli islahatlar, iqtisadi-sosial inkişaf nəticəsində insan hüquqları sahəsində yeni mərhələ başlanmışdır. Oktyabrın 9-da ölkəmizdə keçirilmiş Prezident seçkiləri də demokratik prinsiplərin dövlətimiz tərəfindən qorunmasını bir daha sübut etmişdir. Beynəlxalq qurumlar birmənalı olaraq seçkiləri yüksək qiymətləndirmişlər. Bu gün Azərbaycanda demokratiya və insan hüquqları özünün ən yüksək pilləsinə qalxmaqdadır.

İnsan hüquqlarının qorunmasının əhəmiyyəti o qədər böyükdür ki, BMT Baş Məclisi 1950-ci ildə bütün dövlətlərə və maraqlı təşkilatlara dekabrın 10-u gününü İnsan Hüquqları Günü kimi qeyd etməyi tövsiyə etmişdir.

**Aslan CƏLİLOV.**

# Əlillər üçün təlim kursu keçirildi

«Sosial-İqtisadi İnkişafa Dəstək» ictimai birliyi, «World Vision İnternational» humanitar təşkilatının Azərbaycan Respublikasındakı nümayəndəliyinin dəstəyi ilə 10 rayonda «Əlilliyi olan Şəxslərin Həyatında Müsbət Dəyişikliklər» layihəsinin həyata keçirilməsinə başlanmışdır. Qeyd olunan layihə istiqamətində ilk olaraq 28 noyabr tarixdə Qəbələ rayonunda «Əlilliyi olan şəxslər üçün biznesin yaradılması» təlimi keçirilmişdir. «Biznesin Qurulması Xidməti Təlimi»ndə Qəbələdən 25 nəfər əlilliyi olan gənc iştirak etmişdir. Tədris olunan təlimdə iştirakçılara fərdi sahibkarlıq təşəbbüsçülərinin dəstəklənməsi, biznes planlarının hazırlanması, sahibkarlıq fəaliyyəti və xidmətin təşkili haqqında ilkin məlumatlar çatdırılmışdır. Eyni zamanda təlimdə əlilliyi olan şəxslərin məşğulluq imkanlarının genişləndirilməsi və peşə hüquqları ilə bağlı bilgilər verilmişdir. Digər tərəfdən planlaşdırma, nəzarət, iqtisadi təhlil, keyfiyyətə nəzarət və müştəri məmnunluğu mövzularına daha çox diqqət yetirilmişdir. Təlimdə interaktiv tapşırıqlar, müzakirələr və biznes planın hazırlanması kimi metodlardan istifadə edilmişdir.



Təlimdə iştirak edən əlilliyi olan gənclərə təşkilat tərəfindən dəstək göstəriləcəkdir.

Layihənin açılışında Azərbaycanda səfərdə olan «World Vision İnternational» humanitar təşkilatının baş ofisinin məsul nümayəndəsi Ross Pipper, həmin təşkilatın Azərbaycan Respublikasındakı nümayəndəliyinin direktoru Giorgi Devidze, layihə rəhbəri Vüqar Əhmədov, Qəbələ RİH-nin baş məsləhətçisi Tural Bağırov, «Sosial-İqtisadi İnkişafa Dəstək» ictimai birliyinin sədri Qalib Nəbiyev iştirak etmişlər. Qalib Nəbiyev tədbir iştirakçılarını salamlayaraq layihə haqqında geniş məlumat vermişdir. O, qeyd etmişdir ki, layihənin məqsədi regionlarda əlilliyi olan gənclərin fərdi sahibkarlıq və biznes bacarıqlarının inkişaf etdirilməsi, peşəkar təlimlər vasitəsi ilə onların biznes planlarının hazırlanması və həyata keçirilməsinə kömək göstərməkdir. Təlimlərin nəticəsi olaraq əlilliyi olan gənclər tərəfindən hazırlanan biznes planları qiymətləndiriləcək və sonrakı mərhələdə onların həyata keçirilməsinə dəstək göstəriləcəkdir.

Daha sonra çıxış edən nümayəndələr təlimin təşkilatçılarına öz təşəkkürlərini bildirmiş və bu təlimlərin əlilliyi olan şəxslərin məşğulluq imkanlarının genişləndirilməsi baxımından önəmli olduğunu qeyd etmişlər. Çıxışlardan sonra biznes planlaşdırılması üzrə peşəkar təlimçi Vaqif Həsənov təlimin icrasına başlamışdır.

**Aslan CƏLİLOV.**

# Azərbaycan–ABŞ biznes-forumu

Bakıda ABŞ-ın Türkiyə Respublikasında fəaliyyət göstərən şirkətlərinin Azərbaycana ticarət missiyası çərçivəsində Azərbaycan ABŞ biznes-forumu keçirilmişdir. İqtisadiyyat və Sənaye Nazirliyinin dəstəyi, Azərbaycanda ixracın və investisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə keçirilən biznes-foruma hər iki tərəfdən kimya sənayesi, energetika, əczaçılıq, alternativ və bərpa olunan enerji bölmələrini təmsil edən 70-ə yaxın iş adamı qatılmışdır.

Biznes-forumda Azərbaycanın xarici investisiyalar üçün əlverişli və cəlbedici olduğu vurğulanmış, Amerika iş adamları əməkdaşlıga dəvət olunmuşlar. Sonda hər iki tərəfin investisiya mühiti və biznes imkanları barədə təqdimatları dinlənilmiş, iş adamları arasında ikitərəfli görüşlər keçirilmişdir.

# Daşınmaz əmlakın qeydiyyatı sisteminin inkişafı mövzusunda ictimai təqdimat

Əmlak Məsələləri Dövlət Komitəsi (ƏMDK) «Azərbaycanda daşınmaz əmlakın qeydiyyatı sisteminin inkişafı: səmərəli praktika, şəffaflığın təminatı və konseptual yanaşmalar (2006—2013-cü illər)» mövzusunda ictimai təqdimat keçirib.

Təqdimatda ölkə başçısı tərəfindən dövlət qurumlarının vətəndaşlara xidmət səviyyəsinin yüksəldilməsi, şəffaflığın və çevikliyin daha da artırılması, dövlət orqanlarının fəaliyyətinin modem əsaslarla qurulması barədə əlavə tapşırıqlar verildiyi qeyd olunub. Hazırda 16 elektron xidməti vətəndaşların istifadəsindədir. «Elektron hökumət portalına inteqrasiya sürətlənib, qeydiyyat müddətləri qısaldılıb. Əgər mülkiyyət hüquqlarının təkrar qeydiyyatına dair çıxarışların verilməsi 2005—2009-cu illərdə 30—20, 2010—2012-ci illərdə isə 18—14 gün arasında dəyişirdisə bu ildən etibarən bu müddət 7 günə, əmlak barədə digər arayışların verilməsi isə bir günə endirilib.